**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# SƏHİYYƏ SİSTEMİNDƏ KORRUPSİYA XARAKTERLİ ƏMƏLLƏRİN BİOETİK VƏ HÜQUQİ XÜSUSİYYƏTLƏRİ: BEYNƏLXALQ TƏCRÜBƏ VƏ AZƏRBAYCAN RESPUBLİKASI

İxtisas: 5603.01 – "Beynəlxalq hüquq; İnsan hüquqları"
2406.03 - "Bioetika"

Elm sahəsi: Hüquq

İddiaçı: **Vəfa Yaqubəli qızı Məmmədova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2022**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Hüquq və İnsan Haqları İnstitutunda yerinə yetirilmişdir.

Elmi rəhbərlər: Tibb elmləri doktoru, professor, hüquqşünas
**Vüqar Qurban oğlu Məmmədov**

Hüquq elmləri doktoru, professor
**Aytən İnqlab qızı Mustafazadə**

Rəsmi opponentlər: Hüquq elmləri doktoru, professor
**Mehdi Kamal oğlu Abdullayev**

Filologiya üzrə fəlsəfə doktoru
**Qəmər Aydın qızı Cavadlı**

Hüquq üzrə fəlsəfə doktoru
**Kamran Kamil oğlu Səlimov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyasının Hüquq və İnsan Haqları İnstitutunun nəzdində fəaliyyət göstərən BFD 3.06 Dissertasiya Şurası.

Dissertasiya şurasının
sədri: Hüquq elmləri doktoru, professor
________________ **Aytən İnqlab qızı Mustafazadə**

Dissertasiya Şurasının
elmi katibi: Hüquq üzrə fəlsəfə doktoru
________________ **Qədir Rövşən oğlu Xəlilov**

Elmi seminarın sədri: Hüquq elmləri doktoru, professor
________________ **İrina Yaroslavna Senyuta**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Biologiya və tibbdə böyük irəliləyişlər bir sıra etik və hüquqi problemləri ortaya çıxardı. Onların daha dərindən dərk edilməsi transplantologiya, gen mühəndisliyi, reanimatologiya, insan reproduksiyası və s. sahələrdə elmi-texniki prosesin bu nailiyyətlərinin hərtərəfli qiymətləndirilməsi və xeyirlə zərər arasında müəyyən balansın yaradılması üçün bəşəriyyətdə bioetika elmi meydana gəlməyə başladı ki, o, tezliklə yarandığı tibb, biologiya, etika, hüquqşünaslıq, fəlsəfə, sosiologiya və ilahiyyatın qovşağından kənara çıxdı. Bioetika hazırda tibb (səhiyyə) hüququnun predmetini təşkil edən bütün məsələləri əhatə edən tam hüquqlu müstəqil elm sahəsinə çevrilmiş və YUNESKO-nun dəstəyini alaraq bu təşkilatın prioritet istiqamətlərindən birinə çevrilmişdir. Səhiyyədə yeni texnoloji yeniliklərin tətbiqi ilə insanın, pasientin mənafeyinin, onun hüquq və ləyaqətinin müdafiəsi məsələləri daha da aktuallaşmağa başladı, Çünki bu texnoloji yeniliklərin arxasında çox vaxt böyük biznes, ticarət dayanır ki, onların maraqları həmişə cəmiyyətin maraqları ilə üst-üstə düşmür.

Səhiyyə sistemində insan hüquqlarının pozulması hallarının dünyanın bir çox ölkələrində hüquqşünaslar tərəfindən yaxından öyrənilməsi diqqət obyektinə çevrilir. Çünki gözlənilən ömür uzunluğunun artması ilə həyat və sağlamlığın qorunması məsələləri xüsusi aktuallıq kəsb edir. Onlar fundamental insan hüquqlarını pozduqları üçün böyük sosial təhlükə yaradırlar. Səhiyyə sahəsində korrupsiyaya gəldikdə onun ictimai təhlükəlilik səviyyəsi xüsusilə yüksəkdir. Çünki səhiyyə sahəsində korrupsiya puldan qat-qat artıq olduğundan, onun bədəlini insan iztirabları ödəyir. Korrupsiyanın öyrənilməsi ilə məşğul olan alimlərin və təşkilatların əksəriyyətinin hesablamalarına, eləcə də müxtəlif sosioloji araşdırmaların nəticələrinə görə, ən çox korrupsiyaya uğramış sahələrdən biri təhsillə yanaşı, səhiyyədir və Azərbaycanda korrupsiyanın səviyyəsi bu sektorlarda son vaxtlar xeyli artmaqdadır. Səhiyyədə korrupsiya faktı Azərbaycan Respublikasının (AR) rəsmi statistikası ilə təsdiqini tapmır. Son vaxtlara qədər səhiyyədə korrupsiya faktlarının olması

Azərbaycan Respublikasının (AR) rəsmi statistikasında öz təsdiqini tapmırdı və ictimai rəydə buna əhəmiyyət verilmirdi və kifayət qədər ciddi şəkildə bizə bildirirdilər ki, tibbdə korrupsiya ola bilməz. Lakin, müxtəlif beynəlxalq təşkilatların hesabatlarında Azərbaycan korrupsiyanın yüksək səviyyədə olduğu ölkələr siyahısında göstərilir. Transparency International təşkilatının məlumatına görə, Korrupsiyanı Qavrama İndeksinin (KQİ) dünya reytinqində Azərbaycan 2021-cı ildə mümkün 100 baldan 30 ballıq əmsalla 180 ölkə arasında 128-cü yerdə qərarlaşıb.

Azərbaycan Respublikasının Konstitusiyası vətəndaşlara ən mühüm sosial hüquqlarının, o cümlədən sağlamlığının qorunmasını təmin edir (maddə 41). Korrupsiya bu hüquqların həyata keçirilməsi üçün ən bariz təhlükələrdən biridir. Səhiyyə - iqtisadi və tibbi tədbirlər sistemidir.Onun məqsədi hər bir fərdin və bütövlükdə əhalinin sağlamlıq səviyyəsini qorumaq və yaxşılaşdırmaqdır. Məhz buna görə də səhiyyə sahəsində korrupsiyanın ictimai təhlükəliliyi məsələsi xüsusilə aktualdır. Nəzərə almaq lazımdır ki, səhiyyə sahəsində korrupsiya demək olar ki, aşkarlanmayan ən gizli cinayət hadisələrindən biridir. Bakı və Sumqayıt şəhərlərində müxtəlif tibb müəssisələrinə kömək üçün müraciət edən sorğu keçirdiyimiz 200 respondentin 90%-i korrupsiya təzahürləri ilə üzləşib və bunu geniş yayılmış hadisə hesab edir. Onlar qeyd ediblər ki, korrupsiyanın əsas təzahürü dövlət tibb müəssisələrindən pul qoparmaq olub. Eyni zamanda onların heç biri hüquq-mühafizə orqanlarına müraciət etməyib. Göründüyü kimi, bu səbəbdən, həm də milli qanunvericiliyin mükəmməl olmaması baxımından həmin fenomenlə mübarizə üçün mövcud mexanizmlər səmərəsiz olur.

Səhiyyə sahəsində korrupsiya əməlləri dedikdə, səhiyyənin idarə edilməsində rəsmi iştirak edən şəxslərin öz statuslarından qanunsuz şəxsi mənfəət əldə etmək imkanı kimi istifadə etmək başa düşülür. Korrupsiyanı məhz onların törətdikləri gizli cinayət əməllərinin məcmusu kimi müəyyən etmək olar. Bu əməllərin ictimai təhlükəsi çox yüksəkdir. Çünki onlar bilavasitə vətəndaşların konstitusiya hüquqlarını pozmağa, insanların yaşamaq, sağlamlıq, bərabərlik hüquqlarını tapdalamağa, ikincisi isə dövlət maraqlarına qarşı yönəlmişdir. Ona görə ki, insanların və cəmiyyətin dövlətə,

onun sosial müdafiəsinə, nüfuzuna olan inamını, etimadını sarsıdır, ictimai sağlamlıq prinsiplərini məhv edir.

Qeyd olunanların hamısı bu dissertasiya işinin mövzusunun yüksək aktuallığını və əhəmiyyətini göstərir. Hüquq ədəbiyyatında korrupsiya probleminin kifayət qədər işıqlandırılmasına baxmayaraq, onun bir çox aspektləri hələ də nəzərdən keçirilməmiş və ya həll edilməmişdir. Bu elmi problem ölkəmizdə ilk dəfə olaraq öyrənilir.

Beləliklə, bu mövzunun aktuallığı ən azı üç əsas amillə bağlıdır: birincisi, ictimai həyatın bir çox sahələrinə təsir edən sosial təhlükəli hadisə kimi korrupsiya müasir hüquq elmi tərəfindən öyrənilən aktual problemdir. İkincisi, səhiyyə sahəsində korrupsiya aktlarının elmi təhlili təkcə mühüm nəzəri deyil, həm də praktiki əhəmiyyət kəsb edir, çünki o, profilaktik işin planlaşdırılması və həyata keçirilməsi zamanı yaranan hüquq-mühafizə problemlərinin həllinə kömək edir, üçüncüsü, korrupsiya aktlarının elmi tədqiqi olduqca zəruridir. Azərbaycanda səhiyyə sistemində korrupsiyanın araşdırılması, bu problemin insan hüquqları və bioetika baxımından vacib olmasına baxmayaraq hələ də həyata keçirilməyib.

**A**zərbaycanda bioetika sahəsində ilk tədqiqat əsərləri Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın evtanaziyanın tibbi, sosial və fəlsəfi aspektlərinin, eləcə də akademik C.Ə. Əliyevin biologiya elmlərində yeni texnologiyalar sahəsinin tədqiqinə həsr olunmuş elmi-tədqiqat işləridir. Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Hüquq və İnsan Haqları İnstitutunda professor V.Q. Məmmədovun rəhbərliyi ilə YUNESKO-nun Bioetika kafedrasının Azərbaycan bürosunun açılışı ilə bioetik məsələlərə ilk dəfə olaraq beynəlxalq və milli tibb hüququnun inkişafı kontekstində nəzərdən keçirilməyə başlanmış, həm Azərbaycanda, həm də xaricdə çoxsaylı əsərlər nəşr edilmişdir. 2011-ci ildə AR Prezidenti yanında Ali Attestasiya Komissiyasında (AAK) "Bioetika və tibbi hüquq" şifrəsi hüquq elmləri kateqoriyasına daxil edildikdən sonra bioetika, tibb elmləri qovşağında beynəlxalq hüquqa dair hüquq elmləri doktorluğu A.İ.Mustafazadə (2013), hüquq üzrə fəlsəfə doktorluğu N.G.Qələndərli (2014) və F.E.Əliyeva (2015) dissertasiyaları yerinə yetirilib və uğurla müdafiə olunmuşdur.

Milli hüquq elmində korrupsiyanın aktual məsələləri İ.B. Ağayev, M.N. Ələsgərov, A.İ. Əliyev, B.A. Əliyev, M.N. Əliyev, Z.A. Əsgərov, M.B. Əhmədov, T.F. Vaqabov, A.F. Qədirov, E.H. Həsənov, A.E. Qasımov, L.G. Hüseynov, B.C. Zahidov, İ.A. İsmayılov, M.S.Kazımlı, R.F. Məmmədov, A.T.Müslümov, D.F.Mustafayev, İ.M. Rəhimov, A.G. Rzayev, K.N. Səlimov, F.Y. Səməndərov, Ş.T. Səmədova, N.A. Səfərov, C.İ. Süleymanov, R.A. Eyvazovun müxtəlif əsərlərində, xarici ədəbiyyatda Bryane M., Friedrich Carl J., Goh C.L., Latheef F., Okuyucu-Ergun G., Sforza V., Cimini R., Mechelli A., Vian T.-nın və başqalarının əsərlərində nəzərdən keçirilmişdir. Eyni zamanda, yüksək aktuallığa baxmayaraq, bu gün Azərbaycanın hüquq elmində səhiyyə sahəsində korrupsiya xarakterli əməlləri hərtərəfli təhlil edən tədqiqat əsəri yox dərəcəsindədir və bu işi bu sahədə qabaqcıl hesab etmək olar.

**Tədqiqatın obyekti və predmeti**. Bu tədqiqat işinin obyekti səhiyyə sektorunda ictimai əlaqələr, o cümlədən bioetik, antikorrupsiya və beynəlxalq hüquqi prinsip və normaların qanunvericilikdə tətbiqi prosesləridir. Tədqiqatın predmeti tibbi və beynəlxalq hüququn hamılıqla tanınmış prinsip və normaları, bioetika, Azərbaycan Respublikasının və bir sıra xarici ölkələrin korrupsiyaya qarşı mübarizəyə dair milli qanunları, Azərbaycan Respublikasının səhiyyə qanunvericiliyi və onların tətbiqi təcrübəsidir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Bu tədqiqatın məqsədi Azərbaycan Respublikasının və xarici ölkələrin qanunvericiliyinin, korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq hüquqi sənədlərin hərtərəfli öyrənilməsi ilə səhiyyə sektorunda korrupsiya ilə bağlı əməllərin hüquqi və bioetik xüsusiyyətlərini öyrənmək, bu sahədə qabaqlayıcı tədbirlər hazırlamaq və milli qanunvericiliyi təkmilləşdirməkdir.

Tədqiqatın vəzifələri - yuxarıda göstərilən məqsədə çatmaq üçün qarşıya aşağıdakı vəzifələrlər qoyulmuşdur:

- yerli və xarici ədəbiyyatda, milli və xarici hüquq mənbələrində verilmiş korrupsiya və korrupsiya xarakterli əməllər anlayışlarını təhlil etmək;

- korrupsiyaya qarşı mübarizəyə dair beynəlxalq hüquqi bazanın öyrənilməsi;
- bir sıra xarici ölkələrin milli antikorrupsiya qanunvericiliyini öyrənmək;
- istər Azərbaycanda, istərsə də beynəlxalq səviyyədə tibbi hüququnun bütün məsələlərini əhatə edən bioetikanın bir elm kimi mövcud inkişaf vəziyyətini öyrənmək;
- əsas bioetik prinsipləri və korrupsiya aktları ilə pozulmuş insan hüquqlarını müəyyən etmək;
- Azərbaycan Respublikasının korrupsiyaya qarşı mübarizəyə dair milli qanunvericiliyinin mövcud vəziyyətini öyrənmək;
- səhiyyə sistemində baş verən hüquq pozuntularının anlayışlarını və növlərini təhlil etmək;
- səhiyyə sistemində korrupsiya ilə bağlı halların ümumi səciyyəsini və onlara qarşı mübarizə üsullarını vermək, əhali və mütəxəssislər arasında sosioloji sorğular keçirmək;
- beynəlxalq təcrübədən istifadə etməklə səhiyyə sistemində korrupsiya hallarının qarşısının alınması üçün tədbirlər təklif etmək.

**Tədqiqatın metodları.** Dissertasiya işinin metodoloji əsasını idrakın ümumi elmi dialektik metodu, həmçinin xüsusi metodlar, məsələn: tarixi-hüquqi, dialektik, sosioloji, formal-məntiqi, müqayisəli-hüquqi, sistemli struktur, struktur-funksional və proqnostik metodlar təşkil edir**.**

**Müdafiəyə çıxarılan əsas müddəalar**. Dissertasiya işinin aşağıdakı əsas müddəaları müdafiəyə təqdim olunur:

1. Korrupsiya geniş yayılmış **sosial haldır**, tək rüşvətxorluğa, pulla ələ alınmağa balacalaşıdırıla bilməz. Çünki onun daha mükəmməl üsul və formaları meydana gəlmişdir ki, bu da vəzifəli şəxslərin öz qulluq mövqeyindən şəxsi maraqları naminə istifadə etmələrinə, cəmiyyət və dövlətin qanuni mənafelərinə zidd olaraq törədilməsinə şərait yaradır. Öyrənilmiş beynəlxalq təcrübəyə əsasən, korrupsiyaya qarşı mübarizə üzrə milli qanunvericiliyimizdə geniş verilmiş korrupsiya anlayışının daraldılıb onun "şəxsi mənfəət naminə vəzifə səlahiyyətlərindən sui-istifadə" kimi müəyyənləşdirilməsi təklif olunur. Bu, korrupsiya xarakterli

əməllərin dairəsini genişləndirmək üçün imkan yaradacaqdır və bunlara təkcə hüquq pozuntuları deyil, həm də korrupsiya davranışının ən mühüm komponenti olan etik normaların pozuntularını da daxil etməyə şərait yaradacaqdır, bunlara qarşı səmərəli mübrizə üsulları işlənib hazırlanmalıdır.

2. Korrupsiya getdikcə bütün milli sərhədləri aşır və **beynəlxalq fenomenə** çevrilir ki, bu da onu beynəlxalq hüquq üçün aktual tədqiqat obyektinə çevirir. Korrupsiya proseslərinin nəticələri təkcə ayrı-ayrı ölkələrin deyil, bütün dünyanın inkişafına getdikcə təsir edir. Korrupsiya xarakterli əməllər **insanın**, cəmiyyətin və dövlətin **hüquqlarını pozur**, onların idarə olunmasının demokratik prinsiplərinin parçalanmasına gətirib çıxarır. Bu, korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığın səfərbər edilməsini, milli qanunvericiliyin təkmilləşdirilməsini, korrupsiyanın öyrənilməsi və qarşısının alınması üçün şəffaf məlumat və tədqiqat fəaliyyətlərinin dəstəklənməsini zəruri edir.

3. Korrupsiyaya qarşı mübarizədə həll edilməli olan əsas problemlərdən biri hüquqi məsuliyyətin qaçılmazlığı problemidir. Beynəlxalq təcrübə göstərir ki, korrupsiyaya qarşı effektiv mübarizə üçün təkcə cinayət sanksiyalarının tətbiqi kifayət deyil. Korrupsiya qarşı dünyagörüşünün, davranış normalarının formalaşdırılması, etik maarifləndirmə və ictimai, publik nəzarət, şəffaflığın və transparentliyin artırılması uğurlu nəticələrin əldə edilməsi üçün zəruri şərtdir. Korrupsiyaya qarşı mübarizə **cinayət qanunvericiliyindən kənara çıxır.** Korrupsiyanın strukturuna təkcə korrupsiya cinayətləri deyil, həm də müxtəlif növ hüquqi və mənəvi məsuliyyət tələb edən digər hüquqpozmalar və əməllər daxil edilməlidir.

4. Beynəlxalq təcrübə göstərir ki, mütərəqqi milli antikorrupsiya qanunvericiliyi mövcud olsa belə, və AR-də bu belədir, onun müddəaları yerinə yetirilmədikdə, korrupsiyaya qarşı effektiv mübarizə aparmaq alınmır. Vəzifəli şəxslərin illik gəlirləri və əmlakları haqqında bəyannamələrin verilməsi, yaxın qohumların birgə işləməyin qarşısının alınması və korrupsiyaya qarşı mübarizənin digər mühüm vasitələri AR qanunvericiliyində nəzərdə tutulsa da, bunlar yerinə yetirilmir. Ölkəmizin BMT-nin nəzdində yaradılmış GlobE şəbəkəsinə (Korrupsiyaya Qarşı Mübarizə

Qanunvriciliyinin yerinə yetirilməsinin təminatı üzrə Qlobal Operativ Şəbəkə) qoşulması tövsiyə olunur.

5. Milli qanunvericilikdə cinayət hüququ istisna olmaqla, "korrupsiya", "korrupsiya əməlləri" və s. anlayışları praktiki olaraq heç bir yerdə istifadə edilmir. Qanunlarda, o cümlədən səhiyyə qanunvericiliyində, bu anlayışların **terminoloji olaraq istifadə edilməməsi** bu fenomenlə mübarizəni çətinləşdirir. Beynəlxalq hüquqda korrupsiya hesab edilən bir çox əməllər (məsələn, proteksionizm, qohumluq, şəxsi sədaqət, dostluq, qohumluq və yerlilik zəminində himayədarlıq; işçilərin vəzifələrində rotasiya müddətlərinin pozulması; mənimsəmə və ya yeyinti; israfçılıq; qanunsuz varlanma; gəlir və xərcləri bəyan etməkdən yayınma; cinayət yolu ilə əldə edilmiş pul və əmlakın leqallaşdırılması; inhisarçılıq hərəkətləri və rəqabətin məhdudlaşdırılması və s.) milli qanunvericilikdə ya **belə əməllərə aid olunmur**, və ya onlarla mübarizə aparan real mexanizmlər mövcüd deyil. Artan ictimai təhlükə dərəcəsini və bu fenomenin geniş yayılmasını nəzərə alaraq, milli qanunvericiliyin bütün sahələrində bu anlayışlardan daha geniş istifadəsini tövsiyə edirik.

6. **Etik sahədə** korrupsiya davranış elementlərinə qanunları bilavasitə pozmayan, lakin vəzifəli şəxslərin etik kodekslərinin ümumi qəbul edilmiş beynəlxalq standartlarına zidd olan, ictimai mənafelərə zərər verən hərəkətlər aiddir (məsələn, təsir imkanlarından sui-istifadə, qohumbazlıq, ailə üzvlərinin irəli çəkilməsinə kömək etmək, rəsmi imtiyazlardan şəxsi məqsədlər üçün istifadə etmək və s.). Neqativ davranış nümunələrinin dəyişməsi, dövlət vəzifəsinə yüksək gəlir və imtiyaz mənbəyi kimi deyil, cəmiyyətə, xalqa, dövlətə xidmət etmək imkanı kimi baxışın yaradılması, **yeni dəyərlər sisteminin formalaşması** istiqamətində gərgin iş aparılmalıdır. Bu sistemin əsası ictimai şüurda cəmiyyətin maraqlarına zidd olan şəxsi, qrup və ya korporativ məqsədlərə nail olmaq vasitəsi kimi korrupsiyanın qəbul edilməməsi davranışı durmalıdır (anti-korrupsiya tərbiyəsi).

7. Səhiyyə sahəsində korrupsiya xarakterli əməllər səhiyyə sahəsinin idarə edilməsində rəsmi iştirak edən şəxslərin öz vəzifə imkanlarından istifadə edərək, dövlətin və cəmiyyətin qanuni

maraqlarına zidd, qanunsuz olaraq özləri və yaxınları üçün şəxsi mənfəət əldə etmək məqsədilə törətdikləri hərəkət və hərəkətsizliyin məcmusudur. Bu əməllərin ictimai təhlükəsi böyükdür, çünki onlar birbaşa və ya dolayısı ilə vətəndaşların konstitusion hüquqlarını pozmağa, insanların yaşamaq, sağlamlıq, bərabərlik kimi əsas hüquqlarını pozur, və dövlət mənafelərinə zidd yönəlib, çünki onlar insanların və cəmiyyətinin dövlətə, sosial təminatlarına inamını sarsıdır, ictimai səhiyyənin nüfuzunu və prinsiplərini məhv edir.

8. Səhiyyə sektorunda korrupsiya xarakterli əməllər təkcə qeyri-qanuni deyil, həm də dərin əxlaqsızlıq, tibb ictimaiyyətində etik normalardan və sivil münasibətlərdən uzaq, ən ali qeyri-maddi nemətlərə (həyat və sağlamlıq) qarşı və onlarla bağlı olan əsas insan hüquqlarına qarşı, tibbi deontologiya və etika prinsiplərinə qarşı çıxan əməllər kimi qiymətləndirilməlidir və bu geniş ictimai qınaq tələb edir. Bu cür hərəkətlər Azərbaycanın qoşulduğu 2005-ci ilin Bioetika və İnsan Hüquqları üzrə YUNESKO-nun Ümumdünya Bəyannaməsinin bioetik prinsipləri olan “insan ləyaqəti və insan hüquqları”, “bərabərlik, ədalət və qərəzsizlik”, “həmrəylik və əməkdaşlıq”, “faydalardan birgə istifadə”, “gələcək nəsillərin müdafiəsi” və s. prinsipləri kobud şəkildə pozur.

9. Bioetik tədqiqatların predmeti və vəzifəsi müasir şəraitdə əsas insan hüquqlarının, o cümlədən səhiyyə sahəsində insan hüquqlarının qorunması və təmin edilməsidir. **Səhiyyə konseptual olaraq** sağlamlığın qorunması sistemindən iqtisadiyyatın və biznesin real sektoruna çevrillir, burada vətəndaşlar və pasiyentlər ödənişli xidmətlərin müştəriləri və istehlakçıları kimi çıxış edirlər. Səhiyyə sektorunda yeni ictimai münasibətlər cəmiyyətə və dövlətə, milli qanunvericiliyə çağıış edir ki, onlar tənzim olunmalı və hüquqi çərçivələrə salınmalıdırlar. Azərbaycanda səhiyyəyə hüquq gücünün daxil olunmasına olan həm sosial sifarişin, həm də dövlətin ehtiyac və marağının lüzumluğunun aktuallığı getdikcə kəskinləşir.

10. Səhiyyə sistemində hüquqpozmaların tədqiqi göstərir ki, bir-biri ilə əlaqəli, lakin eyni olmayan üç anlayışı - əhalinin həyatı və sağlamlığı əleyhinə olan cinayətləri, səhiyyə sahəsində cinayətləri (buraya **korrupsiya cinayətləri** də daxildir) və tibb işçilərinin cinayətlərini, onlar bir-birinə hardasa oxşar olsa da, ayırmaq

lazımdır. Yuxarıda göstərilən bütün hüquqpozma qruplarının qarşısının alınması, onlar üçün mənəvi və hüquqi məsuliyyət tədbirlərinin işlənib hazırlanması tibbi hüquq və bioetikanın vəzifəsidir.

11. Milli səhiyyə qanunvericiliyində terminoloji olaraq “korrupsiya” anlayışından istifadə edilməməsi fonunda sadə vətəndaşlar və mütəxəssislər arasında aparılan sorğular göstərdi ki, cəmiyyətimiz Azərbaycan Respublikasının **səhiyyə sistemində korrupsiyanın** geniş vüsət aldığını və onun vətəndaşların konstitusion hüquqlarının pozulmasına gətirib çıxardığını cəmiyyət bilir, etiraf edir, görür və narahatlığını ifadə edir. Sadə vətəndaşlar səhiyyədə korrupsiyanın əsas forması kimi tibb işçilərinin pul tələb etməsini, klinikaların monopoliyasını göstərirlərsə, ekspertlər vəzifə səlahiyyətlərini aşmağa, büdcədən mənimsəməyə, proteksionizmə üstünlük verirlər.

12. Maarif, təhsil və elm sahəsində bioetika və tibbi hüququn inkişafı, tibb işçiləri arasında bioetik və hüquqi təfəkkürün formalaşdırılması, tibb işçiləri arasında korupsiyaya qarşı təbliğat işləri **səhiyyə sistemində korrupsiyaya qarşı tərbiyənin** əsasını təşkil etməlidir. «Korrupsioner olmaq ayıbdır!» şuarı bu tərbiyənin bünövrəsi olmalıdır. Bu sahədə bioetika və tibbi hüquq kafedralarının yaradılması, orta və ali təhsil tibb müəssisələrində bu tədris fənlərinin tədrisi, tibb işçilərinin etik davranış məcəllələrinin təbliği, hüquq fakültələrində mütəxəssislərin hazırlanması bu sahədə mühüm istiqamətlərdir. Səhiyyə rəhbərləri qanunvericiliyi öyrənməli, hüquqi və bioetik baxımdan maariflənməli, hüquqpozmalara, xüsusən də korrupsiya xarakterli əməllərə görə öz səlahiyyətlərinin hüdudlarını, hüquqlarını, vəzifələrini və məsuliyyət növlərini yaxşı bilməlidirlər.

13. Xəstəxanalarda, elmi-tədqiqat müəssisələrində və səhiyyə orqanlarında həkimlərlə yanaşı hüquqşünasları, jurnalistləri, sosioloqları, din xadimlərini və digər mütəxəssisləri bir araya gətirən bioetik komitələrin yaradılması korrupsiyaya qarşı mübarizədə mühüm yer tuta bilər. Bioetik komitələr və etik komissiyalar bir çox ölkələrin milli qanunvericiliyində nəzərdə tutulmuşdur və korrupsiya davranışının qarşısının alınmasında mühüm rol oynayır ki, bu da yerli qanunverici tərəfindən nəzərə alına bilər. Bioetika komitələrinin

vəzifəsinə bu qurumlarda hüquqi və etik həllini tapmalı olan problemli vəziyyətlərin şəffaf şəkildə baxılması daxil olmalıdır.

**Tədqiqatın elmi yeniliyi.** Bu iş Azərbaycanda səhiyyə sahəsində korrupsiya problemlərini tədqiq edən ilk dissertasiya işidir. Bundan əlavə, hüquqi ədəbiyyatda bu problem ilk dəfə olaraq bioetika, tibbi və beynəlxalq hüququn qovşağında elmi baxımdan nəzərdən keçirilir. Respublikada ilk dəfə göstərilir ki, korrupsiya xarakterli əməllər təkcə hüquqi məsuliyyətə səbəb olmamalı, daha geniş mübarizə spektri tələb etməlidir, çünki onların ictimai həyat üçün daha təhlükəli nəticələri var. Onlar dövlətçiliyin, dövlət və konstitusiya quruluşunun əsaslarını sarsıdır, insan hüquqlarını, "insan ləyaqəti və insan hüquqları", "fayda və zərər", "bərabərlik, ədalət və qərəzsizlik", "həmrəylik və əməkdaşlıq", "sosial məsuliyyət və sağlamlıq", "faydalardan birgə istifadə", "diskriminasiyaya və stiqmatizasiyaya yol verilməməsi", "gələcək nəsillərin müdafiəsi" kimi beynəlxalq bioetik prinsipləri pozur. Milli hüquq elmində ilk dəfə olaraq korrupsiyaya qarşı mübarizə sahəsində milli qanunvericiliyin və bir sıra xarici ölkələrin qanunvericiliyinin müqayisəli şəkildə öyrənilməsi, habelə korrupsiyaya qarşı mübarizədə beynəlxalq əməkdaşlıq problemlərinin araşdırılması yolu ilə korrupsiyaya qarşı mübarizə sahəsində profilaktik təkliflər verilir. Azərbaycanda səhiyyə sahəsində antikorrupsiya qanunvericiliyinin, qəbul edilmiş qanunların müddəalarının icrasına ictimai nəzarətin artırılması yolları, normativ-hüquqi aktlar və normativ hüquqi aktların təkmilləşdirilməsi tövsiyə edilir. Azərbaycan hüquq elmində ilk dəfə olaraq korrupsiyaya qarşı mübarizə problemlərini cinayət sahəsindən kənarda, yəni beynəlxalq hüquq, insan hüquqları və bioetika nöqteyi-nəzərindən işıqlandırılmağa cəhd edilir ki, bu da korrupsiyaya qarşı mübarizədə müasir beynəlxalq yanaşmalara tam cavab verir. Korrupsiyanın aşağı səviyyədə olduğu inkişaf etmiş ölkələrdə artıq korrupsiya probleminin təkcə cinayət hüququ normaları ilə həll edilə bilmədiyi göz qabağındadır. Bu sahədə əsas həll yolu mənəvi maneələrin yaradılması, maarifləndirmə işi və etik dəyərlərin inkişafı, antikorrupsiya mədəniyyətinin formalaşdırılması və insan hüquqlarına və cəmiyyətin maraqlarına hörmət edilməsidir.

Aparılmış ictimai rəy, sosioloji tədqiqatlar səhiyyə sektorunda korrupsiyanın mövcudluğunun və yayılmasının vətəndaş cəmiyyəti və mütəxəssislər tərəfindən etiraf edildiyini, eyni zamanda onun gizli mahiyyətini aydın şəkildə müəyyən etmişdir.

Nəzərdən keçirilən problemlər nöqteyi-nəzərindən dissertasiya təkcə daxili bioetika və beynəlxalq hüquq sahəsində deyil, korrupsiya ilə bağlı araşdırmaların artmasına baxmayaraq, müəyyən dərəcədə Azərbaycanın bütün hüquq elmi üçün ilk əsərlərdən biridir. Beləliklə, bu iş bioetik və hüquqi baxımdan səhiyyədə korrupsiyaya qarşı mübarizə problemlərinə həsr olunmuş ilk dissertasiya işidir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**. Bu dissertasiyanın nəzəri əhəmiyyəti ondan ibarətdir ki, o, milli ədəbiyyatda ilk dəfə olaraq korrupsiya problemini kriminalistika və cinayət hüququ sahəsindən kənara çıxarır; dissertasiyada tərtib edilmiş müddəalardan milli səhiyyə və hüququn digər sahələrinin, beynəlxalq hüququn, habelə bioetikanın nəzəri problemlərinin işlənib hazırlanmasında istifadə oluna bilər. Bu iş korrupsiyaya qarşı mübarizənin müxtəlif aspektləri, o cümlədən cinayət hüququ ilə bağlı olmayan problemlərə dair gələcək tədqiqatlar üçün faydalı ola bilər. Ondan alimlər beynəlxalq əməkdaşlığın inkişafı üçün istifadə edə bilərlər. Ümumiyyətlə, bu mövzunun işlənməsi müstəqil, perspektivli elmi istiqamətdir. Dissertasiyada verilən təkliflər və nəticələr onun aktuallığını göstərmək və tədqiq olunan problemin gələcək inkişafına kömək etmək məqsədi daşıyır.

İşin praktiki əhəmiyyəti ondan ibarətdir ki, bu dissertasiya işinin müddəaları aşağıdakılardan ibarət ola bilər:

- cari qanun yaradıcılığı prosesində, xüsusən də korrupsiyaya qarşı mübarizə üzrə beynəlxalq müqavilələrin icrası ilə əlaqədar milli qanunvericiliyin normalarının dəyişdirilməsi zamanı, habelə korrupsiyaya qarşı mübarizə sahəsində qanunvericiliyin təkmilləşdirilməsi zamanı istifadə edilə bilər;
- beynəlxalq səviyyədə gələcək işlərdə, o cümlədən qəbul edilmiş beynəlxalq sənədlərə əlavə və qeyd-şərtlər daxil edilərkən nəzərə alına bilər;
- yeni beynəlxalq antikorrupsiya təşəbbüsləri hazırlanarkən;

- korrupsiyaya qarşı mübarizə ilə məşğul olan hüquq-mühafizə orqanlarının, habelə səhiyyə orqanlarının rəhbərlərinin praktiki işində;
- tədris prosesində istifadə oluna bilər: tibbi hüquq, beynəlxalq hüquq, insan hüquqları, bioetika, cinayət hüququ və kriminologiya üzrə ümumi kursların, habelə beynəlxalq cinayət hüququ və korrupsiyaya qarşı mübarizənin müxtəlif aspektləri üzrə xüsusi kursların tədrisi zamanı, müvafiq proqramların işlənib hazırlanması və bu fənlər üzrə tədris vəsaitlərin hazırlanması zamanı istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Dissertasiya AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunda hazırlanıb, orada onun müzakirəsi keçirilib və müdafiəyə tövsiyə olunub verilib. Dissertasiyanın əsas müddəaları və elmi nəticələri məqalələrdə, tezislərdə və konfransların materiallarında öz əksini tapmışdır. Bu məqalələr və tezislər beynəlxalq və respublika konfranslarında məruzələrdə öz əksini tapmışdır. Dissertasiyaya aid müddəalar Ankara Universitetində Bioetika Təhsili üzrə 2-ci Beynəlxalq Konfransın materiallarında dərc edilmiş, Ankara, Türkiyə (may 2014); 23-cü Ümumdünya Tibbi Hüquq Konqresində “Tibbi Hüquq, Bioetika və Multikulturalizm”, Bakı ş., Azərbaycan (iyul 2017); Bergen, Norveç Universitetində Avropa Tibbi Hüquq Assosiasiyasının 6-cı konfransında (sentyabr 2017); Makao Universiteti, Makao, Çin Xalq Respublikası (ÇXR) Qabaqcıl Hüquq Tədqiqatları İnstitutunun Hüquq Fakültəsində “Bioetika, Tibbi Etika və Tibbi Hüquq üzrə Asiya Perspektivləri” adlı 2-ci Tibbi Hüquq Konfransında (oktyabr 2017); Çinin Şanxay şəhərində Şərqi Çin Hüquq və Siyasi Elmlər Universitetində məhkəmə ekspertizası üzrə “Bir kəmər - bir yol təşəbbüsü” beynəlxalq akademik seminarında (noyabr 2017); 1-ci Moskva Dövlət Tibb Universitetində Tibbi Hüquq üzrə VI Ümumrusiya Konqresinin (Milli Konqres) plenar iclasında, İ.M.Seçenov, Moskva, Rusiya Federasiyası (RF), (noyabr 2017); 24-cü Ümumdünya Tibbi Hüquq Konqresində, Tel-Əviv, İsrail (sentyabr 2018); BDU-nun Hüquq fakültəsinin 90 illik yubileyinə həsr olunmuş “Azərbaycan Respublikasının beynəlxalq aləmə inteqrasiyası və hüquqi dövlət quruculuğunda hüquq elminin

inkişafının müasir meyilləri” mövzusunda Beynəlxalq elmi-praktik konfransda, Bakı ş., Azərbaycan (dekabr 2018); Rusiya Dövlət Ədliyyə Universiteti, Moskva, RF, “Məhkəmə ekspertizası nəzəriyyəsi və təcrübəsinin mübahisəli məsələləri” III-cü Beynəlxalq elmi-praktik konfransda (mart 2019); 25-ci Ümumdünya Tibbi Hüquq Konqresində, Tokio, Yaponiya (avqust 2019); AMEA Hüquq və İnsan Haqları İnstitutunun Elmi Şurasının iclaslarında məruzə edilmişdir.

Dissertasiya materiallarından tədris prosesində - Bakı Dövlət Universitetinin Hüquq fakültəsində bioetika və tibbi hüquq, insan hüquqları, beynəlxalq hüquq, cinayət hüququ və kriminologiya üzrə seminarlar zamanı istifadə edilmişdir.

Dissertasiyanın əsas müddəaları və gəldiyi nəticələr həm Azərbaycanda, həm də xaricdə - Türkiyə, Ukrayna, Rusiya, Çin Xalq Respublikası və Norveçdə çap olunmuş 25 elmi məqalədə öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yerinə yetirildiyi təşkilatın adı**. Dissertasiya işi AMEA Hüquq və İnsan Haqları İnstitutunda hazırlanmışdır. Bu mövzu Azərbaycan Respublikası Elmi Tədqiqatların Təşkili və Əlaqələndirilməsi Şurasının Hüquq Məsələləri üzrə Şurasının iclasında təsdiq edilmişdir.

**Dissertasiya işinin strukturu** Dissertasiya giriş (29699), I fəsil (86244), II fəsil (54473), III fəsil (93504), nəticədən (12781) əlavələrdən və biblioqrafiyadan (361 mənbə) ibarət olmaqla ümumi həcmi (276701) işarə, 165 səhifədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **girişində** tədqiqat mövzusunun aktuallığı əsaslandırılır, problemin işlənmə dərəcəsi təhlil edilir, məqsəd və vəzifələr, habelə tədqiqat metodları müəyyən edilir, nəzəri və praktiki əhəmiyyəti, açıq müdafiəyə çıxarılan əsas müddəaları göstərilir.

**"Korrupsiyaya qarşı mübarizənin beynəlxalq hüquqi əsasları və xarici ölkələrin antikorrupsiya qanunvericiliyi"** adlanan **I fəsil** üç paraqrafdan ibarətdir. “Korrupsiya və korrupsiya

xarakterli əməllər anlayışı” adlı birinci paraqrafda bu anlayışlar açıqlanır, tarixi-hüquqi səviyyədə bu problemə müxtəlif elmi yanaşmalar nəzərdən keçirilir, korrupsiyanın bu gün müasir dövrün ən kəskin problemlərindən birini təmsil etməsi də izah olunur. Göstərilir ki, uzun illər bir çox müəlliflər tərəfindən rüşvətxorluq klassik nümunə sayılsa da, bu gün korrupsiya xarakterli əməllər nəinki rüşvətxorluqdan, ümumiyyətlə, korrupsiya cinayətlərindən, korrupsiyanın təzahürü formalarından yalnız hüquqi deyil, həm də etik normaların vəzifəli şəxslər tərəfindən pozulması kimi çıxış edə bilər. Bu paraqrafda aparılmış konseptual təhlil əsasında belə qənaətə gəlinir ki, müxtəlif ölkələrin qanunvericiliklərində korrupsiya ilə bağlı ümumi anlayış və onun təriflərində oxşarlıq olmasına baxmayaraq, təfərrüatları tərtib edərkən müəyyən fərqlər aşkarlanır, hansılar ki korrupsiyaya nə aid edilə bilər və nələr yox ayırd etməsində böyük əhəmiyyətə malikdir. Tarix, mentalitet baxımından bir-birinə yaxın olan ölkələrdə belə bu fərqlər məzmunca fərqliliklər daşıyır. Bu mənada dissertasiyada geniş təriflər qeyri produktiv kimi tanınır. BMT-nin “Korrupsiya dövlət səlahiyyətindən şəxsi maraqlar üçün sui-istifadəsidir” ifadəsi korrupsiyanın mahiyyətinin ən yaxşı və ən doğru əksidir və “dövlət” sözünün “ictimai” sözünə əvəz edilməsi ilə olduğu kimi korrupsiyaya qarşı mübarizə üzrə milli qanunvericiliyə də daxil edilə bilər, bu da həm özəl şirkətlərdə, banklarda və s. vəzifəli şəxsləri nəzərdə tutur. Tərifdə yığcamlıq prinsipi korrupsiyanın həm mövcud, həm də yaranmaqda olan yeni formalarının əhatə dairəsini nəinki daraltmır, əksinə, genişləndirir.

“Korrupsiyaya qarşı mübarizənin beynəlxalq hüquqi əsasları” adlı ikinci paraqrafda korrupsiyaya qarşı mübarizə üzrə əsas beynəlxalq hüquqi sənədlər xronoloji ardıcıllıqla öyrənilmişdir ki, onlar fəaliyyət sahələrinə və hüquqi əhəmiyyətinə görə ümumbəşəri və regional hüquqi qüvvəyə malik olmaqla təsnif edilmişdir, bunların da sırasında BMT-nin 2003-cü ilin Korrupsiyaya qarşı Konvensiyasına, Avropa Şurasının 1999-cu il cinayət məsuliyyəti və AR-nın qoşulduğu korrupsiyaya görə mülki-hüquqi məsuliyyətə dair konvensiyalara xüsusi diqqət yetirilir. “Korrupsiyaya qarşı mübarizə haqqında”, “Antikorrupsiya siyasəti haqqında qanunvericiliyin əsasları haqqında”, “Qanunsuz yolla əldə edilmiş gəlirlərin

leqallaşdırılmasına (yuyulmasına) qarşı mübarizə haqqında”, MDB Parlamentlərarası Assambleyası tərəfindən qəbul edilmiş və s. model qanunlara da xüsusi diqqət yetirilir.

Birinci fəslin “Xarici ölkələrin antikorrupsiya qanunvericiliyi” adlanan üçüncü paraqrafında bildirilir ki, müxtəlif dövlətlərin antikorrupsiya qanunvericiliyinin unifikasiyası və Beynəlxalq Antikorrupsiya normalarının implementasiyası ləng, əhəmiyyətli çətinliklərlə baş verir və bu proseslər yalnız Cinayət hüququ sahəsində baş verməməlidir. Bank, vergi, inzibati, mülki və digər qanunvericiliyin beynəlxalq tələblərə uyğunlaşdırılması bəzən böyük əhəmiyyət kəsb edir. Bu paraqrafda Rusiya, Ukrayna, Gürcüstan, Belarus Respublikası, Qazaxıstan Respublikası, Türkiyə, ABŞ, Skandinaviya ölkələri, Böyük Britaniya, Fransa, Almaniya, Kanada, Çin, BƏƏ və Sinqapurun Milli antikorrupsiya qanunvericiliyi ətraflı öyrənilmişdir. Normativ hüquqi aktların korrupsiyaya qarşı ekspertizası, parlamentli və ictimai nəzarət, ayrı-ayrı kateqoriyaya aid şəxslərin xarici banklarda əmanət və nağd pul əməliyyatlarının aparılmasına qadağalar, yüksək vəzifəli şəxslərin və onların ailə üzvlərinin gəlir/xərclərini bəyan etməklə maliyyə nəzarəti, dövlət qulluqçularının rotasiya prinsipləri, şərəf məcəllələri və dostpərəstliyin aradan qaldırılması üçün vəzifəli şəxslərə qarşı əlavə ixtisas tələblərinin müəyyən edilməsi, dövlət orqanlarında etik komitə və institutların yaradılması, vətəndaşların ictimai məlumatlara çıxışı, təhsil müəssisələrində və dövlət orqanlarında korrupsiyaya qarşı mübarizə kurslarının təşkili, əhali arasında etik normaların təbliği ilə antikorrupsiya dünyagörüşünün formalaşdırılması, korrupsiya hüquqpozmaları barədə məlumat vermiş şəxslərin həvəsləndirilməsi və faktla bağlı hər hansı, o cümlədən kütləvi informasiya vasitələrində ibtidai araşdırmaya başlanması və s. haqqında məlumatın verilməsi təkcə korrupsiyanın aşağı səviyyədə inkişaf etmiş ölkələrdə deyil, həm də MDB və qonşu ölkələrdə də öz əksini tapmış və həyata keçirilir. Bu paraqrafda aparılan təhlil göstərir ki, Skandinaviya ölkələri, Kanada, Sinqapur kimi aşağı səviyyəli korrupsiyalı ölkələrdə hüquq-mühafizə sisteminin mübarizəsi ilə yanaşı, ictimai şüurda antikorrupsiya mədəniyyətinin formalaşmış yüksək səviyyəsi mühüm əhəmiyyət

kəsb edir ki, bu da sözdən işlərə real keçid, dövlət orqanlarının fəaliyyətinə ictimai nəzarətin gücləndirilməsinə nail ola bilər.

Birinci fəslin sonunda belə bir nəticəyə gəlinir ki, 1) qeyd-şərtsiz hüquqi kateqoriya olan korrupsiya hal-hazırda çox mürəkkəb formalar əldə edən, transmilli və çox geniş yayılmış xarakter alan sosial və beynəlxalq fenomen kimi də nəzərdən keçirilməlidir, 2) yalnız və ya əsasən cinayət-hüquqi tədbirlərlə həyata keçirilən korrupsiyaya qarşı mübarizə effektiv deyil, 3) hüquq normalarını qətiyyən pozmayan, lakin vəzifəli şəxslərin etik davranış normalarına zidd olan korrupsiya əməlləri mövcuddur. Buna görə də, yerli qanunverici beynəlxalq təcrübədən istifadə edərək, bu sahədə şəxsi mənafeyi naminə "cəmiyyətin və dövlətin qanuni mənafelərinə zidd" olaraq öz rəsmi səlahiyyətlərdən və vəzifəsindən hər hansı istifadənin korrupsiya elementlərini ehtiva edə biləcəyini xatırladaraq öz yanaşmalarını inkişaf etdirməlidir. Xidməti vəzifəsindən və səlahiyyətlərindən, ictimai etimadın şəxsi mənafeyi naminə sui-istifadəsi cəzalandırılmalı və ictimaiyyət qarşısında pislənməlidir.

Dissertasiyanın müəllifi **"Səhiyyə sistemində korrupsiya xarakterli əməllərin təsirinə məruz qalmış bioetik prinsiplər və insan hüquqları"** adlı iki paraqrafdan ibarət ikinci fəsildə xaricdə və Azərbaycanda bioetikanın tibbi hüququn bütün məsələlərini əhatə edən kompleks elm kimi inkişafının və formalaşmasının təhlili, eləcə də korrupsiyaya birbaşa və ya dolayısı ilə ilk növbədə ziyan vurmuş əsas bioetik prinsiplər öyrənilmişdır. "Bioetika tibbi hüquq məsələlərini əhatə edən kompleks elm kimi" adlı birinci paraqrafda qeyd edilir ki, bioetika yeni kompleks elm kimi tibb-biologiya elmləri, tibb praktikası (klinik və eksperimental təbabət) və insan dəyərləri sahəsində elmi tədqiqatların kəsişməsində elmlərarası tədqiqatlar sahəsini əhatə edir, insan hüquqlarının, müasir şəraitdə həyat və sağlamlığının qorunması və təmin edilməsi predmetini, habelə səhiyyə sistemində insan hüquqlarının maksimum təmin olunmasını nəzərdən keçirir. Məhz buna görə də YUNESKO-nun bir çox sənədlərində iştirakçı ölkələrə Bioetika və tibbi hüquq sahəsində elmi və təhsili paralel şəkildə inkişaf etdirmək tövsiyə olunur. Dissertasiya mövzusu kontekstində YUNESKO-nun "Bioetika və İnsan Hüquqları haqqında" ümumi bəyannaməsinin 15 əsas bioetik

prinsipləri öyrənilmişdir, ilk növbədə, bu “insan ləyaqəti və insan hüquqları”, “bərabərlik, ədalət və qərəzsizlik”, “həmrəylik və əməkdaşlıq”, “faydalardan birgə istifadəsi”, “gələcək nəsillərin müdafiəsi” prinsiplərinə aiddir.

Bu fəsildə ikinci paraqraf “Səhiyyə sistemində korrupsiya xarakterli əməllərə xələl gətirilən əsas bioetik prinsiplər və insan hüquqları” adlanır və burada 1948-ci il “Ümumdünya İnsan Hüquqları” Bəyannaməsinin və yuxarıda qeyd olunan 15 bioetik prinsiplərin korrupsiya mühitində əsas müddəaları göstərilir. Korrupsiyanın insan hüquqlarını qlobal şəkildə pozması faktı əsaslandırılır. Korrupsiya yoxsullar və varlılar arasındakı fərqi daha da artırır. Hakimiyyət nümayəndələri öz vəziyyətlərindən tamah məqsədilə istifadə edir və vətəndaşların hüquqlarına məhəl qoymamağa başlayırlar ki, bu da cəzasızlığa və özbaşınalığa gətirib çıxarır. Xəsislik, sosial eqoizm, əxlaqın və ya qanunların ümumi qəbul edilmiş normalarına riayət edilməməsi və universal normalardan istifadədən imtina edilməsi, bir qayda olaraq, yoxsulların hüquqlarının və azadlıqlarının pozulmasına gətirib çıxarır.

İkinci fəslin yekununda qeyd olunur ki, ölkədə bioetika və tibbi hüququn inkişafı elmin, hüququn və ictimai nəzarətin səhiyyə sistemində korrupsiyaya qarşı mübarizə üzrə vəziyyətinin yaxşılaşdırılmasına təsirinin ən səmərəli mexanizmlərindən birinə çevrilə bilər. Etik yanaşmalar və etik antikorrupsiya dünyagörüşünün formalaşdırılması korrupsiyaya qarşı mübarizədə, o cümlədən səhiyyə sektorunda ən mühüm və effektiv vasitədir.

Üç paraqrafdan ibarət olan **“Milli səhiyyə sistemində korrupsiya xarakterli əməllərə qarşı xəbərdarlıq və mübarizə tədbirləri”** adlanan üçüncü fəsildə ilk dəfə antikorrupsiya qanunvericiliyinin səhiyyə və tibb praktikası prizmasından təhlili aparılmış, həmçinin, öyrənilmiş beynəlxalq təcrübə əsasında təkmilləşdirilə biləcək ümumi xarakterli boşluqlar göstərilmişdir. Burada əhalinin və mütəxəssislərin tibb və hüquq sahəsində sosioloji sorğusu nəticəsində səhiyyə sahəsində korrupsiyanın yayılması ilə bağlı ictimai rəy ilk dəfə olaraq ifadə edilmiş, milli səhiyyə qanunvericiliyində antikorrupsiya baxımından boşluqlar tədqiq

edilmişdir və dissertasiyanın əsas müddəalarında öz əksini tapmış yeni tədbirlər tövsiyə etmişdir.

Üçüncü fəslin 3.1. "Azərbaycanın antikorrupsiya qanunvericiliyi" adlanan birinci paraqrafında "Korrupsiyaya qarşı mübarizə haqqında" 2004-cü il tarixli, eləcə də ötən əsrin 90-cı illərində təsdiq olunmuş Azərbaycan Respublikası Prezidentinin fərmanlarının müddəaları ətraflı təhlil edilir. Milli inzibati, mülki-hüquqi və cinayət qanunvericiliyinin, ölkəmizin antikorrupsiya orqanlarının fəaliyyətinin müvafiq müddəaları araşdırılır. Qanunlarda, xüsusən də məcəllələrdə "korrupsiya", "korrupsion" və digər sözlərdən istifadə zamanı terminoloji yan keçmənin yolverilməzliyi vurğulanır.

Üçüncü fəslin 3.2. "Səhiyyə sistemində hüquqpozmalar və hüquqi məsuliyyət tədbirləri" adlı paraqrafda səhiyyə və tibb fəaliyyəti sahəsində hüquqpozmaların və cinayətlərin əsas anlayışları araşdırılır. Müəllif təklif edir ki, cinayətləri bir-biri ilə əlaqəli, lakin eyni olmayan 3 anlayışa - əhalinin həyatı və sağlamlığına qarşı cinayətlər, səhiyyə sahəsində cinayətlər və tibb işçilərinin cinayətlərini bir-biri ilə əlaqəli olan bütövlükdə və hissələr, ümumi və xüsusi kimi ayırmaq və diferensiallaşdırmaq lazımdır. Hər bir konkret halda, bənddə göstərilən bütün cinayət və hüquqpozmalarda tibb işçisinin təqsirli və ya təqsirsizliyi barədə nəticə çıxarmaq üçün hərəkət və ya hərəkətsizliyin insan sağlamlığı və həyatı ilə bağlı nəticələri ilə səbəb-nəticə əlaqəsinin qurulması zəruridir. Hüquq-mühafizə orqanlarını maraqlandıran bu və digər məsələlərin həlli üçün məhkəmə və təhqiqat orqanlarının nümayəndələri bir tərəfdən hal-hazırda imkanlarından heç də həmişə tam istifadə olunmayan, bəzən isə qərəzliliyi və departamentin maraqlarına hörməti və digər tərəfdən ağ xalatlı həmkarlarının müdafiəsini istisna etməyən, məhkəmə-tibbi ekspertizasını təyin etməlidirlər.

Üçüncü fəslin 3.3. "Səhiyyədə korrupsiya xarakterli əməllər və beynəlxalq təcrübədən istifadə etməklə Azərbaycanda onların profilaktikası yolları" adlanan üçüncü paraqrafında iki sosioloji sorğuların nəticələri verilmiş, səhiyyə sistemində israfçılıq və vəsaitlərin talanması, dövlət satınalmaları və sifarişləri sahəsində, ödəniş sistemlərində, dərman preparatlarının tədarük və təyinatı

sistemində, şəxsiyyət və ya sağlamlıq azadlığına qarşı əməllər və s. kimi korrupsiya xarakterli əməllərin əsas formaları sistemləşdirilmiş və tədqiq edilmişdir. Sorğular göstərir ki, respondentlərin 90%-i AR səhiyyə sahəsində korrupsiyanın olduğunu və bunun vətəndaşların sağlamlıq hüququnu pozduğunu təsdiq edirlər. Müəllif bunu düşünmək üçün mühüm məlumat kimi təqdim edir.

Bundan başqa, qeyd olunur ki, hazırkı antikorrupsiya qanunvericiliyinin müddəaları tam şəkildə yerinə yetirilmir və onların icrasına nəzarət mexanizmləri fəaliyyətsizdir. Gəlirlər haqqında bəyannamənin, xüsusilə səhiyyə rəhbərlərinin və qanunvericilikdə nəzərdə tutulmuş məlumatların təcrübədə təqdim edilməsi üçün yer yoxdur və bu barədə ictimaiyyətə məlumat verilmir.

Real həyat göstərir ki, beynəlxalq standartlara uyğun milli qanunvericilik korrupsiyanın qarşısının alınması üçün yalnız öz mövcudluğu ilə kifayət deyildir. Müəllif təsdiq edir ki, artıq qəbul olunmuş qanunların müddəalarının yerinə yetirilməsi üçün, korrupsiya və korrupsiya xarakterli əməllərin müəyyənləşdirilməsi, dövlət orqanlarının fəaliyyətinə ictimai nəzarət imkanlarının genişləndirilməsi baxımından milli qanunvericiliyin ayrı-ayrı sahələrinin təkmilləşdirilməsi, dövlət satınalmaları və sifarişlərinin həyata keçirilməsində şəffaflığın artırılması, müqavilələrin bağlanması, büdcə pulunun xərclənməsi, yeni prinsiplərin tətbiqi, məsələn, vəzifəyə təyin olunarkən rotasiya prinsipi, sanksiyaların daha düzgün və təsirli mexanizmi kimi “əmlakın müsadirəsi”, antikorrupsiya təbliğatının, təhsilin, maarifləndirmənin gücləndirilməsi, davamlı antikorrupsiya dünyagörüşünü və fəal antikorrupsiya davranışını formalaşdıran real mexanizmlər lazımdır.

Korrupsiyaya qarşı mübarizə sahəsində sabit dünyagörüşünü və fəal antikorrupsiya davranışını formalaşdıran antikorrupsiya kampaniyası korrupsiyanın qarşısının alınması tədbirləri arasında ən mühüm atributdur. Korrupsiyaya qarşı televiziya serialları və “Oktopus” serialında Komissar Kattani kimi personajların yaradılması İtaliyada polis, prokurorluq, məhkəmələr, nazirliklər və bələdiyyələrdə mafiya və korrupsioner məmurlarla mübarizədə çox böyük uğurlar qazanmağa kömək etdi. Dövlət (bələdiyyə) işçilərinin,

sahibkarların və bütün əhalinin formalaşmış mənfi davranış nümunələrinin dəyişdirilməsi çox vacibdir, çünki təəssüflər olsun ki, bu gün cəmiyyətdə dövlət vəzifəsinə münasibət cəmiyyətə və dövlətə xidmət etmək imkanı kimi deyil, məhz daha çox yüksək gəlir və imtiyaz mənbəyi kimi ifadə olunur. Lazımi davranış dəyərlərini - ictimai şüurda korrupsiyanın qəbul edilməməsi və cəmiyyətin maraqlarına zidd olan şəxsi, qrup və ya korporativ məqsədlərə nail olmaq vasitəsi kimi davranış (korrupsiyaya qarşı maarifləndirmə) vacibdir. Korrupsioner olmaq ayıbdır!

Dissertasiyanın **nəticə** hissəsində səhiyyə sistemində korrupsiya xarakterli əməllərin əsas bioetik və hüquqi xüsusiyyətləri və vurğulanan tədqiqatın xülasəsi verilmişdir. Milli hüquq elmində ilk dəfə olaraq beynəlxalq hüquqi sənədlərin öyrənilməsi və xarici dövlətlərin qanunlarının geniş təhlili ilə əsaslandırılmışdır ki, korrupsiyaya qarşı mübarizə çoxdan cinayət qanunvericiliyinin hüdudlarından kənara çıxmışdır, yalnız cinayət-hüquqi sanksiyalardan istifadə olunması onunla effektiv mübarizə aparmaq üçün kifayət deyil. Yeni davranış dəyərlərinin yaradılmasının vacibliyi xüsusilə vurğulanır - korrupsiyanın ictimai şüurda qəbul edilməməsi və cəmiyyətin maraqlarına zidd olan şəxsi, qrup və ya korporativ məqsədlərə nail olmaq vasitəsi kimi davranış (korrupsiyaya qarşı maarifləndirmə) hesab edilməlidir. Məmurların formalaşmış neqativ davranış nümunələrinin dəyişməsi, dövlətə və ictimai vəzifələrə yüksək gəlir və müavinət mənbəyi kimi ictimai münasibətə deyil, məhz cəmiyyətə, xalqa, dövlətə xidmət etmək imkanı kimi yenidən baxılması, dövlətin sosial müdafiəsinin gücləndirilməsi üzrə yeni dəyərlər sisteminin formalaşması gərgin iş tələb edir. İşdə qeyd-şərtsiz qənaətə gəlinir ki, korrupsiya əməlləri birbaşa və ya dolayı yolla insanın, cəmiyyətin və dövlətin hüquqlarını pozur, onların idarə olunmasının demokratik prinsiplərinin parçalanmasına gətirib çıxarır. Bu şəraitdə yerli səhiyyənin inkişafı üçün müəllif bioetik hərəkatın mühüm rolunu, elmi-tədqiqat və tibb müəssisələrində etik komitələrin və komissiyaların yaradılmasını vurğulayır. Tibbi ictimaiyyətin etik və hüquqi özünüdərkinin formalaşmasında bioetika və tibbi hüquq kurslarının tibbi təhsil müəssisələrinin bütün səviyyələrdə tətbiqi böyük əhəmiyyət kəsb

edir. Səhiyyə sisteminin yuxarı və orta idarə heyəti üçün belə kursların başlanması da çox vacibdir, çünki tibb müəssisələrinin rəhbərləri və Səhiyyə Nazirliyinin əməkdaşları insan hüquqları və onun azadlıqları sahəsində AR-nın qoşulduğu beynəlxalq hüquqi və ölkənin qanunları xarakterini daşıyan sənədlərinin məzmununu haqqında məlumatlara malik olmalıdır.

**Dissertasiyanın əsas müddəaları iddiaçının aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**


1. Mammadov, V.Q., Mammadova, V.Y. Corruption crimes in the health system: principal concepts and types // Abstract Book of 2nd International Conference on Ethics Education, - Ankara: Gürkale Group, - 21 – 23 May, - 2014, - p. 75.
2. Мамедова, В.Я. Понятие и виды коррупционных преступлений // - Баку: Сборник «Труды молодых ученых». Общество Молодых ученых, аспирантов и магистров, Министерство Молодежи и Спорта Азербайджана, - 2014. No10, - с. 246-250.
3. Мамедова, В.Я. Влияние коррупции на демократическое правовое государство // - Баку: Odlar Yurdu Universitetinin Elmi və Pedaqoji Xəbərləri, - 2016. No 43, - с. 71-80.
4. Mammadova, V.Y., Mammadov, V.Q. Infrigement of main bioethical principles by corruption // Abstracts of the 23rd World Medical Law Congress, - Los Angeles: William S. Hein & Co., Inc, - 10-13 July 2017, - 36 (2), - p. 249.
5. Мамедов, В.К., Мамедова, В.Я. Формирование биоэтики и медицинского права в Азербайджане как единой комплексной науки // - Львов: Научный журнал "Медичне право", - 2017, № 2 (20), - с. 44-58.
6. Mammadova, V.Y., Mammadov, V.Q, Saukenova, S., Jafarova, L. What does transparency means in the health system? // Book of Abstracts of the Sixth European Conference on Health Law, - Bergen: Brill, - 27 - 29 September – 2017, - p. 28.
7. Mammadova, V.Y., Mammadov, V.Q. Medical law, bioethics and multiculturalism bring WAML, UNESCO and Azerbaijan

together. // Abstracts Book of the 2nd Conference on Medical Law “Asian Perspectives on Bioethics, Medical Ethics & Medical Law”, - Macau: Institute for Advanced, Legal Studies, Faculty of Law, University of Macau, - 16 – 17 October, - 2017, - p. 7.

8. Мамедова, В.Я., Мамедов, В.К. Определение понятия коррупции и деяний коррупционного характера в правовых научных и документальных источниках // - Баку: Юридические Науки и Образование, - 2017. No 52, - с. 207-228. (iki dildə).
9. Mammadova, V.Y., Mammadov, V.Q. Teaching bioethics and medical law courses at Law Faculty // Abstracts Book of “The Belt and Road Initiative” International Academic Seminar on Forensic Science, East China University of Political Science and Law, - Shanghai: China, - 3 - 5 November, - 2017, - p. 69.
10. Mammadov, V.Q., Mammadova, V.Y. About more immorality of corrupted behaviour in the health system ratheir than corruption of other sectors // Bakı: «International Law and Integration Problems» (“Beynəlxalq hüquq və inteqrasiya problemləri”) elmi-analitik və praktiki jurnal, - 2017, 2 (50), - p.28-32.
11. Мамедова, В.Я., Мамедов, В.К. Защита прав пациентов как основная задача биоэтики и медицинского права в современных условиях // - Москва: Медицинское Право: Теория и Практика. Материалы Vİ Всероссийского съезда (Национального Конгресса) Медицинского Права на базе 1-го Московского Государственного Медицинского Университета им. И.М. Сеченова, 16 - 17 ноября, - 2017, 3, №2 (6), - с. 96-106.
12. Мамедова, В.Я., Мамедов, В.К. International legal framework of fight against corruption // - Баку: Юридические Науки и Образование, - 2017. No53, - с. 56 – 73 (iki dildə).
13. Мамедова, В.Я., Мамедов, В.К. Основные биоэтические принципы и права человека, ущемляемые деяниями коррупционного характера в системе здравоохранения // Bakı: Azərbaycan Tibb Jurnalı, - 2017. No4, - s. 134-143.

14. Мамедова, В.Я., Мамедов, В.К. О мерах по борьбе с коррупцией в Азербайджане // - Bakı: Nəqliyyat hüququ, - 2017, No3, - s. 194-206.
15. Мамедова, В.Я., Мамедов, В.К. Приоритет охраны здоровья в законодательстве Азербайджана и угрозы, связанные с коррупцией // - Баку: Sağlamlıq, - 2017. No6, - s. 171-176.
16. Мамедова, В.Я., Мамедов, В.К. Медицинское право, биоэтика и мультикультурализм как сферы тесного сотрудничества ВАМП и ЮНЕСКО // - Волгоград: Федеральный научно-практический журнал «Биоэтика», - 2018, - 1 (21), - с. 23-27.
17. Мамедова, В.Я., Мамедов, В.К. Правонарушения в системе здравоохранения и меры юридической ответственности в Азербайджанском законодательстве // - Москва: Федеральный научно-практический журнал «Медицинское право», - 2018, No 2 (78), - с. 24-31.
18. Мамедова, В.Я., Мустафазаде, А.И., Мамедов, В.К. Антикоррупционные законодательства стран СНГ и Турции // - Bakı: Dirçəliş – XXİ Əsr (Azərbaycan Dövlət Quruculuğu və Beynəlxalq Münasibətlər İnstitutunun elmi nəşri), - 2018. № 184, - s. 6-21.
19. Mammadova, V.Y., Mammadov, V.Q. Forensic-medical expertise of medical staff misconduct: from legal and ethical perspectives // Abstracts Book of the 24th World Medical Law Congress, - Tel Aviv: William S. Hein & Co., Inc, - 2 - 5 September, - 2018, Vol.37, Number 2, part 2. - p. 65.
20. Mammadova, V.Y., Mammadov, V.Q. Violations of main bioethical and human rights UN declarations by corrupted actions in health system // - New York: Medicine and Law, - 2018, 37 (2), - p. 285-296
21. Мамедова, В.Я., Мамедов, В.К. Деяния коррупционного характера в здравоохранении // BDU-nun Hüquq fakültəsinin 90 illik yubileyinə həsr olunmuş “Azərbaycan Respublikasının beynəlxalq cəmiyyətə inteqrasiyası və hüquqi dövlət quruculuğunda hüquq elminin müasir inkişaf

tendensiyaları” mövzusunda Beynəlxalq elmi-praktiki konfransın materialları? Bakı: Bakı Universiteti Nəşriyyatı, - 14.12.2018, - s.355-359.
22. Мамедова, В.Я., Мамедов, В.К., Мамедова Л.Э. Суха теория, мой друг, коль древо жизни зеленеет // Материалы III Международной научно-практической конференции «Дискусионные вопросы теории и практики судебной экспертизы», - Москва: Российский Государственный Университет Правосудия, - 28-29 марта - 2019 года, - с. 399-406.
23. Pavlova, G.Sh., Mammadov, V., Gasimov, N., Jafarova, L., Mammadova, V., Pavlova, E.N. Bioethical principles in public health of the 21st century // 25th Annual World Association for Medical Law, 2019 Annual Congress, - Tokyo, - 6-8 August, - 2019, - p. PH. 14.
24. Мамедова, В.Я., Мамедов, В.К. Коррупция как угроза для реализации прав человека в здравоохранении: первое диссертационное исследование этой медико-правовой проблемы в Азербайджане // - Москва: Федеральный научно-практический журнал «Медицинское право», - 2019. 5 (87), - с. 44-55.
25. Мамедова, В.Я., Мамедов, В.К. Позитивный заонодательный опыт развитых зарубежных стран: роль этических норм в области борьбы с коррупцией // - Bak; Azərbaycan hüquq jurnalı, - 2020. No3, - s. 88-106.

Dissertasiyanın müdafiəsi 11 mart 2022-ci il tarixində saat 14^00 Azərbaycan Milli Elmlər Akademiyasının Hüquq və İnsan Haqları İnstitutu nəzdində fəaliyyət göstərən BFD 3.06 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1073, Bakı şəhəri, H.Cavid pr., 115.

Dissertasiya ilə AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunun Kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının (aak.qov.az) və Azərbaycan Milli Elmlər Akademiyasının Hüquq və İnsan Haqları İnstitutunun (http://huquq.org.az/az/) rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 8 fevral 2022-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 28.01.2022

Kağızın formatı: A5

Həcm: 39132

Tiraj: 30